# KEÇMİŞDƏN GƏLƏN SƏSLƏR

*S.Xəyal. Nişat Şirvaninin bir qəzəli*
*// Əlyazmalar yanmır. 2021, №2(13), s.205-206.*

UOT: 821.512.162

**Sona Xəyal**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş. İstiqlaliyyət küç.26.*

## NİŞAT ŞİRVANİNİN BİR QƏZƏLİ

Füzuli ədəbi məktəbinin davamçılarından olan Nişat Şirvani Şirvan torpağının yetirməsidir. Həyatı haqqında dəqiq məlumat olmadığından tədqiqatçılar şairin bioqrafiyasını onun şeirlərinə istinadən yazmışlar. Mənbələr Nişat Şirvaninin Şamaxıda doğulduğunu və XVIII əsrin I yarısında yaşadığını qeyd edirlər. Görkəmli tədqiqatçımız Salman Mümtaz bir çox dəyərli klassiklərimiz kimi, Nişat Şirvaninin də əsərlərini toplayıb, kitab halında nəşr etdirmiş və həmin kitaba Nişatın şeirləri ilə yanaşı, onun şeirlərinə nəzirə və təzmin yazan Hacıağa bəy Zülali, Məhəmməd Hüseyn xan Müştaq, Ağa Məsih Şirvani, Fətəli bəy Hali, Qasım bəy Zakir, İsmi bəy Nakam, Siracəddin Siraci, Fatma xanım Kəminə, Həsən Qara Hadi, Mirzə Əliəsgər Növrəs, Məhəmmədəli bəy Məxfi, Molla Məhəmməd Katib, Seyyid Əzim Şirvani, Abdullah bəy Asi, Xaliqi, İskəndər bəy, Mirzə Sadiq, Əbdüssəməd bəy Aşiq, Molla Pənah Vaqif, Şuxi və Sabir kimi şairlərin əsərlərini də daxil etmişdir. Vaqifin məşhur "Görmədim" müxəmməsi də Nişatın əsərinə nəzirədir.

Müxtəlif toplularda Nişat Şirvanın Salman Mümtazın kitabında olmayan bəzi şeirlərinə rast gəlmək mümkündür. Şairin bütün əsərlərini və ona yazılmış əsərləri yenidən bir kitab halında toplayıb nəşr etdirmək qərarına gəldikdə, Əlyazmalar İnstitutundakı cüngləri və bəyazları araşdırdıq və Nişatın yeni əsərlərini əldə etdik. Bir bəyazdan götürdüyümüz qəzəli və əsərin fotosurətini "Əlyazmalar yanmır" jurnalının oxucularına təqdim edirik:

*Başdan ki, xəyali-kəmərü kakilə düşdüm,*
*Təng oldi ara yerdə işim müşkilə düşdüm.*

*Hər bəzmə ki, basdım əyağ üftadəlik etdüm,*
*Peymanə kimi dəstinə, əldən-ələ düşdüm.*

*Xali-siyəh etmiş məni avarə vətəndən,*
*Bir danə içün quş kimi eldən-elə düşdüm.*

*Qüdsilər ilən aləmi-Əqdəsdə gəzərkən,*
*Yarəb, nələmişdim ki, bu abü gilə düşdüm?*

*Hər su  özümi şövq ilə ki, mövc tək atdum,*
*Bigövhəri-məqsud genə sahilə düşdüm.*

*Ğürbətdə rəhi-sə`ydə əsbabi-səfər tək*
*Asudəliğim olmadı, hər mənzilə düşdüm.*

*Gər misli-hübab özgə həva başimə düşdi,*
*Bir dəm də evim tikdimü yıxdım, yolə düşdüm.*

*Yüz  görmədim, əzbəs ki, Nişat, əhli-vətəndən,*
*Bu vəchlədür baş alubən yad elə düşdüm.*



